"Balakən Azərbaycanın çox gözəl guşəsidir" İlham ƏLİYEV




YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 01 (08) ✦ 29 yanvar 2025-ci il



# Qanlı yanvar - 20.01.1990





1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə saat 23:30-da Rus qoşunu (keçmiş sovet ordusu) Bakı şəhərinə Azadlıq hərakatını boğmaq üçün daxil olur.Buna etiraz edən xalqı isə qadın-uşaq, qoca-cavan demədən güllə-boran edir. Sovet Ordusu qoşunlarının Bakıya və Azərbaycanın rayonlarına qanunsuz daxil olması nəticəsində 131 nəfər həlak olmuş, 400 nəfər həbs edilmiş, 744 nəfər yaralanmış, 4 nəfər itkin düşmüşdür. Hərbçilərin yandırıcı güllələrdən açdığı atəş yanğınlara səbəb olmuş, bunun nəticəsində 200 ev və mənzil, 80 minik avtomobili, o cümlədən təcili tibbi yardım maşınları, dövlət və şəxsi əmlak dağıdılıb. Ölənlər arasında qadınlar, uşaqlar və qocalar, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları və polislər də var...

Cəmi 23 ay yaşayan,şərqdə ilk demokratik respublika,dövlət olan ADR-i boğduqları kimi...

Bunların hesabı hələ verilməyib...

20 yanvar hər il ölkəmizdə qanlı yanvar faciəsinin ildönümü kimi qeyd olunur. Dövlət bayraqları yarıya endirilir. Bu gün, 20 Yanvar faciəsinin qurbanlarının anım günü respublikanın hər yerində olduğu kimi Balakəndə də qeyd olundu. Balakən Şəhidlər Xiyabanına axın edərək gələn rayon ictimaiyyəti 20 Yanvar faciəsinin qurbanları yad edir,onların ruhundan fatihə oxuyaraq bağışlayırlar. Ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsinə Şəhidlər Xiyabanında ucaldılmış abidənin önünə qərənfil dəstələri qoydular. Tədbirdə çıxış edən Rayon Ağsaqqallar Şurasının sədri Xəlifə Mirəliyev 1990-cı il 20 yanvarda baş verən facidən danışaraq bu cürə məşəqqətlərə qatlanaraq, qurbanlar verərək qazandığımız müstəqilliyimizin əbədi olduğunu söylədi. Natiq çıxışında 20 Yanvar faciəsinə ulu öndər Heydər Əliyevin verdiyi siyasi qiymətdən də danışdı... O günlərin canlı şahidi olmuş, keçmiş hərbiçi mayor Şaban Daşdəmirov Bakıya hücum edən Rus (sovet) ordusunun tərkibindən, tərkibindəki erməni pisliklərindən, onların vəhşiliklərindən danışdı. Türk, Azərbaycan xalqına qarşı qanlı müdaxilələri, hücumları törədənlərin hər zaman həmən həmən eyni tərkibdə olduqlarını, 1992-ci il 26 Fevral Xocalı soyqırımını törədənlərlə bənzər tərkibdə olduğunu vurğuladı...

20 Yanvar faciəsinin qurbanlrının anım gününə həsr olunmuş tədbir saat 12:00-da bir dəqiqəlik sükutla yekunlaşdı.

Ramazan ABAL

# Balakəndə 29 Yanvar Bələdiyyə seçkisi



Bu gün Azərbaycanda bələdiyyələr üçün keçirilən sayca 6-cı ümumrespublika seçkisində Balakənlilər də fəal iştirak edir.

Balakəndə iki,110 və 111 saylı seçki dairəsi üzrə 52.416 nəfər seçmək hüququ olan seçici, yerli və seçkili idarəetmə orqanı olan bələdiyyələrə dəstəklədikləri namizədləri seçmək, onlara səs vermək üçün səhər saatlarından qeydiyyatda olduqları məntəqələrə gələrək öz konistitusion haqlarından doğan vətəndaşlıq vəzifəsini yerinə yetirirlər. Seçdikləri bələdiyyəni hər zaman yerlərdə yanlarında görəcəklərindən bunda maraqlı və sevincli, bu seçkidə həvəslidirlər. Zonamızın ən yaşlı seçicisi, fevralın birində 101 yaşına qədəm qoyacaq İosif Pavloviç Perekrestov da səs verməyə hazırlaşaraq evinə gətiriləcək səyyar seçki qutusunun gəlməsini gözləyir.

YENİ BALAKƏN

# Səyyar qəbul

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada vətəndaşların qəbulunu həyata keçirmək, onların ərizə, şikayət və təkliflərinə baxmaq, lazımi tədbirlər görmək və nəticəsi barədə vətəndaşlara məlumat vermək, habelə yerli icra hakimiyyətlərinin təsdiq edilmiş qrafikinə əsasən yaşayış məntəqələri üzrə keçirilməsi nəzərdə tutulan səyyar qəbullardan, Balakən Rayon İcra Hakimiyyəti Başçısı İslam Rzayevin növbəti səyyar qəbulu, bu gün şəhər inzibati ərazisi üzrə Balakən şəhərində, şəhər sakinləri ilə oldu.







Görüş şəhərin ən böyük məktəblərindən olan internat məktəbinin akt zalında keçirildi. Tədbiri giriş sözü ilə açan rayon rəhbəri diqqəti ilk öncə bu gün Davosda başa çatan 55-ci Davos Dünya İqtisadi Forumuna, Azərbaycanın dünyada durmadan artan nüfuzuna, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda keçirdiyi çoxsaylı görüşlərə yönəltdi. Çıxışında Azərbaycanın sürətli inkişafında yerlərdəki səmərəli fəaliyyətin, keyfiyyətli xidmətin də müstəsna əhəmiyyəti olduğunu vurğuladı. Daha sonra şəhər sakinlərini dinlədi. Sakinlərdən Nooyev Nürəddin, Çobanov Nəsib, Ağcayev Nazim, Tinayev Taciddin, Ustayev Məhəmməd, Qasımov Səid, Paçalov Məhəmməd və digərləri bir sıra təklif, irad və problemləri dilə gətirərək görüşdə fəal iştirak etdilər. Rayon rəhbəri səsləndirilən məsə- lələr üzrə aidiyyatı təşkilatların görüşdə iştirak edən rəhbərlərini qaldıraraq gərəkən göstəriş və tapşırıqlarını verdi. Hətta sakinlərin unutduğu, demədiyi məsələləri özü şəxsən xatırladaraq, məsələn Əli Ansuski küçəsində hər iki tərəf səkilərdə tamet daşlarının qırıldığını, altının boşaldığını, daha çox da yağış yağdığı zaman səki ilə hərəkətin çətinlik yaratdığını bildirərək Balakən Şəhər İcra Nümayəndəsi Telman Bayramova lazimi tapşırığı verdi...



-Növbəti görüşlərdə görüşmək, bu görüşün nəticələrindən razılığınızı dilinizdə, məmnuniyyətinizi üzünüzdə görmək diləyilə, salamat qalın - deyərək, rayon rəhbəri qəbulu başa çatdırdı.

YENİ BALAKƏN

# Bir gəncin yeni yazılan həyat hekayəsi





"Yeni Balakən" qəzetinin baş redaktoru Ramazan Abalovdan Məhəmmədi soruşanda "onu kim tanımır ki, - dedi - Balakəndə kimdən soruşsanız möcüzə nəticəsində sağ qalan bu cavan haqqında sevinclə danışar".

İki aydan sonra iyirmi yaşı tamam olacaq. Yeni Şərif kəndində doğulub. Orta məktəbi bitirəndən sonra Qroznı şəhərinə gedib. Bu da təsadüfi deyil. Çünki kafel ustası olan atası Eyvaz Papaxovun ailəsi oraya köçüb. Məhəmməd burada Moskva Hüquq Kollecinin Qroznı filialına daxil olub. 2023-cü ildə hərbi xidmətə getmək üçün Balakənə qayıdıb. Ordu sıralarında xidmət edib. Keçən ilin oktyabr ayının 26-sında isə hərbi xidmətini başa vurub.

Bu yazdıqlarım 20 yaşlı bir gəncin kiçik həyat hekayəsidir, amma Məhəmmədin heç ağlına da gəlməzdi ki,2024-cü ilin dekabr ayının 25-də onun bu həyat hekayəsinə heç vaxt unuda bilməyəcəyi bir səhifə də yazılacaq…

Yeni Şərif kəndində Papaxovların evini tapmaq o qədər də çətin olmur. Ramazanın dediyi kimi soruşduğumuz hər kəsin üzünə təbəssüm qonur,yolu nişan verir.

Bu da Məhəmmədin yaşadığı ev, görüşürük, hal əhval tuturuq, Məhəmmədi soruşuruq "evdədir - deyirlər, - içəri keçin". Stol arxasında oturub onu gözləyirik. Stolunun üstünə hər şey düzülüb. Hiss edirəm ki, son günlər Papaxovların evi qonaqlı-qaralı olduğundan bu yerlərin süfrəsinin şahı sayılan maxaraya qədər var. Budur, hündürboylu, yaraşıqlı bir oğlan o biri otaqdan keçib, bizə sarı gəlir. İllərin tanışı kimi görüşüb öpüşürük, bağrıma basıram. Söhbət edirik. Yuxarıda xatırlatdığımız kimi bir ay əvvəl hərbi xidmətdən qayıdıb.İstirahət edəndən sonra dekabrın 25-də təhsilini davam etdirmək üçün yenidən Qroznıya getməyi qərara alıb.Dekabrın 24-də avtobusla Bakıya yola düşüb.

Təyyarədəkilərin bəzilərini tanıyırdım - deyir, - bir neçəsi ilə elə hava limanında tanış oldum. Biletim 30-cu yerə idi. Gedib əyləşdim. Mən bu yolu çox getmişəm. Elə də uzaq deyil, təxminən bir saatlıq yoldur.Odur ki, adam heç yatmaq həvəsində də olmur. Dəqiq deyə bilmərəm nə qədər vaxt keçmişdir. Birdən möhkəm səs eşitdik. Düzü əhəmiyyət vermədim, fikirləşdim ki, yəqin təyyarədə nəsə nasazlıq əmələ gəlib. Amma sonra hiss etdim ki,ciddi bir hadisə baş verib. Biraz keçdi artıq açık aşkar görünürdü ki, əməlli-başlı gərginlik var. Vəziyyət o qədər də ürək açan deyil. Təyyarə bələdçisinin "bütün qaydalara, təlimata uyğun əməl edin, narahat olmayın,hər şey yaxşı olacaq" sözləri düzü ürəyimə su səpdi. Elə bu vaxt arxada 31-ci yerdə əyləşən gənc bir qadın əlini çiynimə toxundurub," xahiş edirəm gəlib yanımda outrun, qorxuram" deməsi yenə məndə narahatlıq yaratdı. Durub arxaya keçdim. Leyla adlı bu xanım başını çiynimə qoyub, əllərimi sıxıb ağlayırdı "iki balam yetim qalacaq"- deyirdi. Onu sakitləşdirməyə çalışırdım amma bacarmadım. Adını sonralar bildiyim bələdçi Hökümə Əliyevanın qarşıda dayanıb sərnişinləri təmkinli olmağa çağırması və konkret olaraq nə iş görəcəyimizi bizə izah etməsi və bir də son günlər hamının dillər əzbəri olan "hər şey yaxşı olacaq" sözlərini bizə toxtaqlıq gətirirdi.

Arxasını danışa bilmir,gözləri dolur. Anası Pirdas xanım gərginliyi yumşaltmaq istəyir "bəlkə çayınızı dəyişim, - deyir, - xahiş edirəm heç olmasa maxaradan dadın, qonşumuz bişirib, heç meyvə də yemədiniz".

Məhəmmədin gözlərinə baxıram bir nöqtəyə dikilib. Qarşısındakı soyumuş çaydan bir qurtum alır, yenə söhbətinə davam edir.

-Pəncərədən təyyarənin çırpılmağa doğru getdiyini açıq aydın görürdüm, bundan sonra heç nəyi xatırlamıram. Özümə gələndə gördüm ki, hər tərəfdən əməlli başlı sıxılmışam. Yanımda outran Leyla xanımın isə bir əlini gördüm. Özümü imkan daxilində sinəmə qədər çıxara bildim. Bir nəfər mənə kömək elədi amma onun kim olmasını düzü bilmədim. Bilmədim ki, sərnişinlərdən idi yoxsa oranın xilasedicilərindən idi…

Məhəmmədi təcili Aktauda xəstəxanaya yerləşdirdilər elə bu vaxt vatsap nömrəsinə zəng gəlir. Yaxşısı budur Pirdas xanım özü danışsın:

-Ürəyimdə bir narahatçılıq var idi, gecə də pis yatmışdım. Səhər yuxudan durub üzümü dağlara tutub o qədər dua eləmişəm ki. Evda özümə yer tapa bilmirdim. Tez-tez həyətə çıxırdım. Görəsən indiyə kimi niyə xəbər yoxdur? Axı oğlum çoxdan çatmalı idi. İnanın dayanmadan yığırdım və birdən..

Qəhər onu boğur. Bayaqdan yuxarıda dediyim kimi, vəziyyəti yumşaltmaq istəyən Pirdas xanım indi özü danışa bilmir. Söhbəti yenə Məhəmməd davam etdirir:

-Gördüm anamdır, tez telefonu açdım. İlk sualı bu oldu, ay oğul hardasan, bayaqdan sənə zəng çatmır. Həyacanlı olduğunu açıq-aydın hiss edirdim. Odur ki, hər şey qaydasındadır-dedim. Xəstəxanadayam, yüngül xəsarət almışam. Mən hardan biləydim ki, təyyarənin qəzaya düşməsindən onun xəbəri yoxdur.

Hörmətli oxucu, mən burda bu sözlərdən sonra Pirdas xanımın hansı hisslər keçirdiyini, hansı vəziyyətə düşdüyünü yazıb sizi kövrəltmək istəmirəm. Yeni Şərif Bələdiyyəsinin sədri Murtuzəli Nuriyevin söylədiklərini, gələcəkdə Balakəndən olan yazıların hansındasa xatırlayarıq.

Soruşa bilərsiniz bəs Məhəmmədin atası Eyvaz Papaxovla niyə görüşmədiniz? Bunun da günahı təbii ki, bizdəydi. Gərək əvvəlcədən xəbərdarlıq edərdik. Bu hadisəni eşidib Azərbaycana qayıdan Eyvaz bəlkə desək də evdə olmayacaqdı. Çünki həmin gün o hərbi xidmətdə olan, qardaşı Məhəmmədi görmək üçün məzuniyyətə gələn o biri oğlu Murad yola salmağa getmişdi.

Ayrılanda Məhəmmədə bir sual verirəm:

Baş vermiş dəhşətli qəza heç yuxuna girirmi?

Bir kəlmə ilə cavab verir "yox".

Sağollaşırıq. Həyət qapısına çatanda isə başqa sual yadıma düşür:

-Sənin yanında olan o xanımla maraqlandınmı?

Sualıma sualla cavab verir:

-Məni yanına çağırmaqla həyatımı xilas edən Leyla xanımı deyirsiniz? Əlbəttə xatırlayıram. Allah bilir arxa oturacağa keçməsəydim nə olacaqdı. Bakıda xəstəxanada olanda birinci onunla maraqlandım, Allaha çox şükür, dedilər sağdır. Dünən zəng vurmuşdu.

**İlqar HƏSƏNOV,**
**"Xalq" qəzetinin bölgə müxbiri**

# SÜRPRİZ YUBİLEY





Sevda xanım Yusibova uzun illər - dir mədəniyyət sahəsində çalışır. Rayonumuzun bütün tədbirlərində mədəniyyət müəssisələrinin iştirakının təşkilində, onların necə iştirak etmələri, hansı fəaliyyətləri göstərəcəklərinə qədər və bu işlərin ərsəyə gəlməsində danılmaz xidməti olan zəhmətkeş, cəfakeş insandır. Uzun illərin təcrübəsi onu, rayonun mədəniyyət sahəsinin ən peşəkar kadrı kimi tanıdıb. Mehribanlığı, diqqəti, qayğısı ilə, səmimiliyiylə hər kəsin sevimlisi, hörmətlisidir..

Sevda xanımın həyat və fəaliyyətinə dünənindən bu gününə doğru nəzər saldıqda;o,ilk dəfə işə 1986-cı ildə başlayıb və ilk işi də Mədəni Çadırın müdiri olub. Bu işdə işləyə-işləyə İncəsənət Universitetini bitirib. Beş müdürlə işləyib, Rayon İcra Hakimiyyətlərinin və Mədəniyyət Nazirliyinin "Fəxri Fərmanları" ilə təltif olunub. Mədəniyyət sahəsində 10 il dövlət qulluğunda işləyib, sonra inspektor vəzifəsində, daha sonra Balakən Mədəniyyət İşçilərinin Həmkarlar Komitəsinin sədri, hal hazırda Balakən Mədəniyyət Mərkəzində metodist vəzifəsində çalışır. Rəhmətlik həyat yoldaşı Gündüz bəy, 1-ci Qarabağ müharibəsinin qazisi idi.İki qız övladı, iki də nəvəsi var..

14 yanvar Sevda xanımın doğum günüdür. Bu il bu tarix onun 60 illik yubileyinə təsadüf edir. Bu münasibətlə mədəniyyət işçiləri ona sürpriz olaraq yubiley tədbiri keçirməyi qərara aldılar. Yubiley tədbiri sürpriz olduğu üçün təşkilatçılıq işləri "gizliliklə" həyata keçirilirdi. Sevda xanıma da demişdilər ki, yeni il şənliyi keçirmək istəyirik, ona hazırlaşırıq. Artıq gün o gün olmuş (14 yanvar), məkan hazır, dəvətlilər hər kəs gəlmiş, ifa edəni, oxuyanı, oynayanı, aparıcısına qədər hər şeyi özündən olan mədəniyyət işçiləri kollektiv şəkildə düzülərək girişin baş tərəfində, əllərində gül çiçək, qarşılarında masa, masanın üzərində "Yubileyin mübarək!" yazılı şamlarla bəzədilmiş böyük tort, hamı Sevda xanımı gözləyir. Budur, heç nədən xəbərsiz, "yeni il şənliyinə" gələn Sevda xanım taksidən düşür. Çöldən baxıldığında məkanın yarı tünd şüşələrindən içərini tam sezmək, görmək olmur. Elə ki, Sevda xanım qapını açır, içəri ilk addımını atır, gördüyü mənzərə, qrşılaşdığı tablo onu təəccüblə, heyrətlə baxdırır, inanmağı gəlmir, inana bilmir - bütün bunlar, burdakı hər kəs, hər şey məhz onun üçün burdadır. Bir anda fərqinə varır amma bu səfər də yoğun duyğu seli onu hərəkət etməyə qoymur, gözləri yaşarır, sinəsi gabarır, təbəssümlü üzünə damlayan sevinc göz yaşı damlası, sabah günəşinin baharda yamyaşıl otun üzərində parlatdığı şehə bənzəyir. Məni qarşısında, əlimdə fotoaparat onun şəklini tarixə alarkən gördükdə, bunu özü də etiraf edir: - Səni qarşımda görəndə atrıq yüz faiz bildim, mənə görə burdasız.-

Kollektiv çiçəklərlə qarşılayır Sevda xanımı, tort masasına yaxınlaşır, dilək tutur, üfürərək bütün şamları söndürür, şirinlik tortunu hər kəslə paylaşır. Gözəl tədbir, məclis başlayır.Hər şeyi özündən düzələn işlər kimi, bu məclis də möhtəşəm keçdi. 2025-in yanvarın 14-ü gecəsi, o məclisdə iştirak edənlərin hər birinin yaddaşında ən gözəl günlərdən, şip-şirin xatirələrdən biri kimi əbədi olaraq qalacaq.

**Ramazan ABAL**

**P.S.** Adı gəldiyində təsəvvürünü, şəklini hörmətin və sevginin canlandırdığı Sevda Yusibovanın Əməkdar Mədəniyyət İşçisi adına namizədliyini ilk olaraq "Yeni Balakən" qəzeti təklif etmiş olsunda, bizə aidiyyatı orqan(lar) qoşulub, bu təklifin təltifə dönüşdüyü xəbərini versinlər, inşallah.

# Rəqəmsal resept tezliklə Balakəndə



Bildiyiniz kimi Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin "Tədbirlər Planı"nın 3.2.4-cü bəndinin icrası ilə əlaqədar olaraq, eyni zamanda Nazirlər Kabinetinin "Əczaçılıq sahəsinin tənzimlənməsinin təkmilləşdirilməsi üzrə Tədbirlər Planı"nın 3.1-ci bəndində "Reseptlərin elektron qaydada elektron sistemdə yazılması, aidiyyatı qurumların, bütün tibb müəssisələrinin və aptek təşkilatlarının həmin sistemə qoşulması" məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən "Rəqəmsal resept" informasiya sistemi hazırlamışdır.

Bununla bağlı, Səhiyyə Nazirliyi tərəfindən dərman vasitələrinə reseptlərin elektron formada yazılmasına imkan verən sistemin tətbiqi, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün tibb müəssisələrinin, həmçinin özəl tibb fəaliyyəti ilə məşğul olan resept yazmaq hüququna malik tibb işçilərinin həmin sistemə qoşulması təmin edilmişdir.

Rəqəmsal resept sisteminin tətbiqi mütəxəssislərin rəqəmsal səhiyyə ilə daha effektiv xidmət göstərməsini, dərman dövriyyəsinə nəzarətin gücləndirilməsini, pasiyentlərə sürətli şəkildə xidmət göstərilməsini təmin edəcək və eyni zamanda əvvəllər təyin edilmiş dərmanların tarixini görməyə, dərmanlar arasında arzuolunmaz uyğunsuzluğun qarşısını almağa, dəqiq dozaları göstərməyə, habelə Xəstəliklərin Beynəlxalq Təsnifatına əsaslanan diaqnozlara uyğunlaşmağa imkan verəcək.

Ölkədə elektron reseptlərdən istifadə ilə bağlı çoxsaylı müraciətlər var.Bununla əlaqədar olaraq digər bölgələrdə olduğu kimi Balakəndə də tibb müəssisələrində çalışan həkimlər və əczaçılarla birgə mütəmadi təlimlər və vebinarlar keçirilir. Hətta iclaslarımızda belə bu məsələ üzərində durulur, məlumatlandırma, mariflendirmə işləri aparılır. Təlimlər və vebinarlar tamamlandıqdan, mütəxəssislər praktik bilgilərə tam yiyələndikdən sonra rayonumuz da sistemə qoşulacaq. Bu sayədə vətəndaşımız ən müasir xidmətlərdən birini görməklə yanaşı,ona göstərilən tibbi xidmət bir üst səviyyəyə yüksələrək rahatçılğı, güvənliyi, professionallığı da bərabərində gətirəcək...

**Dilbər QULİYEVA**
**Balakən RMX Publik Hüquqi Şəxs Direktor**

# Suyunuz həmişə gəlsin



**Şəhər ərazisində, Əli Ansuski küçəsində ana su xəttinin təmiri zamanı.**

Balakən suyun bol olduğu,yeraltı və yerüstü çayları olan rayon olsada, zamanla su problemi yaşanır. Problemlər suyun azlığından, yoxluğundan deyil, daha çox dağdan anbara gələn ana xəttin dağıdıcı təbiət hadisələrinin təsirinə məruz qaldığından, bəzi xətlərin istismar müddəti hələ sovet dövründə bitdiyindən, yol təmir işləri zamanı ağır tonajlı makinaların hərəkəti zamanı basılaraq yer altında zədə görən xətlərin sonra sıradan çıxmasından,su idarəsinin dəfələrlə bu təşkilatdan o təşkilata verilməsi,əl dəyişməsi kimi səbəblərdən yaranır. Belə vəziyyətdə, hər nə olur olsun, istər şaxta,istər qovurucu isti,İstər gecə-gündüz, istərsədə sel-tufan, qar-boran demədən 24 saat Balakənin içməli suyunun keşiyində, təminatında və təşkilində duran bir sahə var su idarəsində: Qəza Bərpa Xidməti və o xidmətin sözün əsl mənasında qabiliyyətli,bacarıqlı,peşəkar personalı. Su təminatında harda bir problem olsa,biz orda bu peşəkar komandanın və ya onların nümayəndəsinin məsələni qısa zamanda həllinə nail olduğunu, vətəndaşın su təminatını bərpa etdiyini görürük. Qəza bərpa xidmətinin peşəkar işçilərinin bəzilərini sizlərə təqdim edirəm: Dibirov Səfa Sədrəddin oğlu - Qəza bərpa xidmətinin sahə rəisi, Layıcov Anar Nəcməddin oğlu - Su ustası, Köklərov Məhəmməd Burhan oğlu-qaynaqçı, Xalayev Elxan Nəsrəddin oğlu - çilngər - təmirçi, İbrahimov Eşqin Oruc oğlu - traktorçu.

Su həyatdır. İçməli suyumuzun fasiləsiz təminatında vicdanla çalışan, qabiliyyətli və məsuliyyətli bu komandaya can sağlığı, yüksək maaş və işlərində müvəffəqiyyətlər arzulayırıq.

**YENİ BALAKƏN**

*"Kənd təsərrüfatının inkişafı prioritet məsələdir. Bu, sosial, iqtisadi sahədir, qeyri-neft sektorunun inkişafı üçün dəstəkdir."*

*İlham Əliyev*

# KƏND TƏSƏRRÜFATININ SİYAHIYAALINMASI: Azərbaycanın aqrar sektoruna statistik baxış

Kənd təsərrüfatı - ərzaq təhlükəsizliyinin təmin edilməsində, iş yerlərinin yaradılmasında, kənd yerlərinin inkişafında mühüm rol oynayan fundamental iqtisadi sahədir. İqlim dəyişikliyi, əhalinin artımı və ərzaq bazarında rəqabətin artması kimi qlobal çağırışlar fonunda kənd təsərrüfatının dəqiq, aktual və hərtərəfli təhlilinin aparılması günümüzün tələbi kimi ortaya çıxır. Bu istiqamətdə işlərin təşkili üçün ən effektiv vasitələrdən biri kənd təsərrüfatının siyahıyaalınmasının aparılmasıdır.

Kənd təsərrüfatının siyahıyaalınması - ölkədə kənd təsərrüfatının bütün əsas aspektləri üzrə təfsilatı məlumat əldə etmək üçün aparılan kompleks statistik sorğudur. Bu sorğu torpaqdan istifadə vəziyyəti, əkin sahələrinin strukturu, suvarma, mal-qaranın sayı və sürü dövriyyəsi, təsərrüfatların istehsal göstəriciləri, əmək resursları və digər imkanları barədə geniş məlumat almaq fürsətini verir. Siyahıyaalmanın keçirilməsi təkcə kənd təsərrüfatı sektorunun mövcud vəziyyətini qiymətləndirməyə deyil, həm də onun güclü və zəif tərəflərini görməyə, bu sahədəki tendensiyaları müəyyən etməyə imkan verir. Bu mühüm informasiya mənbəyi dövlət tərəfindən fermerlərə dəstək üçün effektiv strategiya və proqramların işlənib hazırlanmasında, eyni zamanda aqrar sektora cəlb ediləcək investisiyaların istiqamətinin müəyyənləşdirilməsində xüsusi əhəmiyyətə malikdir.

Dünya ölkələrinin təcrübəsində kənd təsərrüfatı siyahıyaalmaları adətən on ildə bir dəfə keçirilir. Nəzərə alsaq ki, sonuncu dəfə keçirilmiş kənd təsərrüfatının siyahıyaalmasından ötən on il ərzində ölkədə kənd təsərrüfatı istehsalçılarının fəaliyyətində, sayında, strukturunda, inzibati ərazi bölgüsündə dəyişikliklər baş vermişdir, bu halda sosial-iqtisadi inkişaf sahəsində çağdaş problemlərin həllinə ünvanlanacaq tədbirlər kənd təsərrüfatı məhsulu istehsalçıları haqqında ətraflı məlumatların toplanması üçün yeni siyahıyaalmanın keçirilməsi zərurətini ortaya qoyur.

Kənd təsərrüfatı siyahıyaalmasından bəhs edərkən bu mühüm statistik tədbirin tarixinə qısa nəzər salmaq məqsədəuyğun olardı. Beləliklə, 19-cu əsrdən başlayan kənd təsərrüfatı siyahıyaalmaları 1835-ci ildə Norveçdə, 1840-cı ildə ABŞ-da, 1846-cı ildə Belçikada, 1852-ci ildə Uruqvayda, 1866-cı ildə Böyük Britaniyada, 1888-ci ildə Argentinada, 1895-ci ildə Macarıstanda, 1896-cı ildə Kanadada, 1897-ci ildə Bolqarıstanda keçirilmişdir. 1905-ci ildə Romada Beynəlxalq Kənd Təsərrüfatı İnstitutunun (IIA) yaradılmasından sonra bir çox dövlətlər bütün dünyada kənd təsərrüfatı siyahıyaalmalarının vahid əsaslarla keçirilməsi barədə razılığa gəldilər. Beləcə 1929-1930-cu illər üçün ilk Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramı (WCA) hazırlandı və 60-a yaxın ölkədə tətbiq edildi. Proqramın 1940-cı il üçün nəzərdə tutulan növbəti mərhələsi İkinci Dünya müharibəsinin başlaması səbəbindən tamamlana bilmədi. 1945-ci ildə Beynəlxalq Kənd Təsərrüfatı İnstitutunun əsasında Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) yaradıldı və 1950-ci ildən başlayaraq hər on ildən bir yenilənən vahid Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramının hazırlanması təmin edildi. Hal-hazırda dünya ölkələri tərəfindən tətbiq olunan mövcud Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramının 2020-ci il raundu 10-cu proqramdır və 2016-2025-ci illəri əhatə edir.

Ölkəmizdə kənd təsərrüfatının siyahıyaalınması ilk dəfə 1921-ci ildə keçirilib. Sonrakı illərdə isə kənd təsərrüfatının ayrı-ayrı sahələrinə dair sorğu və uçotlar reallaşdırılıb. 1932-ci ildən sonra kənd təsərrüfatı sahəsində kollektivləşmə və sovxoz quruculuğu ilə əlaqədar iri təsərrüfatlar meydana gəldiyindən geniş miqyaslı kənd təsərrüfatı siyahıyaalınmasının keçirilməsinə ehtiyac qalmayıb. Kolxoz və sovxozlar üzrə kənd təsərrüfatına dair müvafiq statistik məlumatlar bu təsərrüfatların təqdim etdikləri dövlət statistika hesabatlarının əsasında əldə edilib, əhalinin şəxsi yardımçı təsərrüfatları üzrə məlumatlar isə müəyyən seçmə müşahidə və uçot məlumatları əsasında toplanıb.

Müstəqil Azərbaycan Respublikasının tarixində kənd təsərrüfatının siyahıyaalınması ilk dəfə 2005-ci il iyunun 1-dən 30-dək olan dövrdə keçirilib. Həmin siyahıyaalmanın hazırlanıb keçirilməsi işi Dövlət Statistika Komitəsi və onun yerli orqanları tərəfindən yerinə yetirilib, nəticələr 8 cilddən ibarət olmaqla məcmuələr toplusu şəklində nəşr edilərək məlumat istifadəçilərinə təqdim olunub.

Aqrar sektorda həyata keçirilən islahatlar və cəlb edilən investisiyalar nəticəsində meydana çıxan yeni iqtisadi şərait kənd təsərrüfatına dair daha geniş və dolğun məlumatların əldə edilməsini zəruri edirdi. Bu məqsədlə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 28 dekabr tarixli 357 nömrəli Qərarı qəbul edildi və 2015-ci il iyunun 1-dən 30-dək olan dövrdə Azərbaycanda ikinci dəfə kənd təsərrüfatının siyahıyaalınması keçirildi. Toplanmış məlumatlar əsasında kənd təsərrüfatındakı vəziyyəti hərtərəfli qiymətləndirməyə imkan verən 15 cilddən ibarət məcmuələr nəşr edilərək istifadəçilərə təqdim olundu.

Qeyri neft-qaz sektorunun inkişafı, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalına nail olmaq istiqamətində görülən dövlət dəstəyi tədbirləri, kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişaf etdirilməsi, istehsalçıların müvafiq istehsal vasitələri ilə təminatının gücləndirilməsi sonuncu kənd təsərrüfatı siyahıyaalmasından sonrakı dövrdə də davam etdirilmiş, bu sahəyə cəlb edilmiş investisiyaların həcmi artmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə birbaşa dövlət dəstəyi olaraq subsidiyaların və vergi güzəştlərinin verilməsi, kənd təsərrüfatı təyinatlı əksər maşın və texniki vasitələrin idxal rüsumundan azad olunması kimi alətlərin tətbiqi bu sahədə inkişafa öz bəhrəsini verməkdədir. Son illər ərzində dövlət dəstəyi hesabına regionlarda soyuducu anbarların, müasir taxıl elevatorlarının və digər logistika obyektlərinin qurulması, habelə yolnəqliyyat infrastrukturunun inkişafı, meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi hesabına suvarma suyu ilə təmin olunan torpaqların əhatəsinin genişlənməsi, gübrə, pestisid ilə təminatın yaxşılaşdırılması fermerlərin bazarlardakı mövqeyini möhkəmləndirmişdir. Aqrar bölmədə həyata keçirilən islahatların informasiya təminatının zənginləşdirilməsi məqsədilə kənd təsərrüfatında baş verən proseslər haqqında aktual məlumatların əldə edilməsini təmin etmək üçün Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması çərçivəsində Azərbaycanda da bu mühüm tədbirin həyata keçirilməsinə zərurət var idi.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli, 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın 5.1.2.9-cu bəndində 2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının növbəti siyahıyaalınmasının keçirilməsi ilə bağlı tədbir öz əksini tapır.

Bu Sərəncamın icrası olaraq "2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli, 357 nömrəli Qərarı ilə ölkə üçün müstəsna əhəmiyyətə malik olan bu tədbirin 2025-ci ilin 15 iyul - 15 avqust tarixlərində keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirin mütəşəkkil keçirilməsini təmin etmək məqsədilə Nazirlər Kabinetinin sözügedən qərarı ilə Tədbirlə Planı təsdiq edilmiş, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, digər aidiyyəti təşkilatlara müvafiq tapşırıqlar verilmiş və İstiqamətləndirici Komitə yaradılaraq tərkibi təsdiq edilmişdir.

Siyahıyaalma kənd təsərrüfatı istehsalı ilə məşğul olan hüquqi şəxslər tərəfindən siyahıyaalma vərəqələrinin Dövlət Statistika Komitəsinin elektron informasiya sistemində real vaxt rejimində doldurulması yolu ilə, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə isə siyahıyaalmaya cəlb ediləcək şəxslər (sayıcılar) tərəfindən planşet tipli kompüterlərdən istifadə olunmaqla sorğu yolu ilə keçiriləcək.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının tövsiyələrini və beynəlxalq təcrübəni, siyahıyaalmanın planşet tipli kompüterlər vasitəsilə keçirilməsinin üstünlüklərini (yekun məlumatların əldə olunmasına 7-8 ay az vaxt tələb olunur, 340-dan artıq kompüter operatorunun 6 ay müddətinə, 73 nəfər siyahıyaalma qrupu rəhbərinin şəhər və rayonlar üzrə nümayəndəsinin 9 ay müddətinə işə qəbul edilməsinə, 1,2 milyon siyahıyaalma vərəqəsinin çap olunmasına ehtiyac qalmır, siyahıyaalma məlumatları birbaşa elektron daşıyıcılara daxil edildiyi üçün operatorların səhv etmə ehtimalı aradan qalxır, yekun məlumatların keyfiyyəti artır və s.), habelə ölkəmizdə İKT-nin tətbiqinin genişləndirilməsi zəruriliyini nəzərə alaraq 2025-ci ildə ölkəmizdə kənd təsərrüfatının siyahıyaalınmasının ilk dəfə olaraq planşet tipli kompüterlərdən istifadə etməklə sorğu yolu ilə (CAPI üsulu: Computer Assisted Personal Interviewing - kompüter vasitəsilə şəxsi müsahibə) keçirilməsi nəzərdə tutulmuşdur.

İlkin hesablamalara görə 1,2 milyondan çox ev təsərrüfatının siyahıyaalma ilə əhatə olunacağı planlaşdırılır. Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş normativlərə uyğun olaraq kənd təsərrüfatı siyahıyaalınmasının keçirilməsi məqsədilə hər 120 təsərrüfata bir nəfər sayıcı olmaqla 10 mindən çox sayıcı və hər 10 sayıcıya 1 nəfər olmaqla mindən çox təlimatçı-nəzarətçinin işə cəlb edilməsi nəzərdə tutulur. Bu zaman həm sayıcı, həm də təlimatçı-nəzarətçi üçün tapşırığın yerinə yetirilməsinə 40 təqvim günü müəyyən edilmişdir.

Siyahıyaalma üzrə işlərin uğurla təşkil edilməsi və onun həyata keçirilməsinin əsas şərtlərindən biri də kənd təsərrüfatı məhsulu istehsalçıları arasında kütləvi maarifləndirmə işlərinin vaxtında və yüksək səviyyədə təşkil olunmasıdır. Əvvəlki siyahıyaalmaların təcrübəsi və beynəlxalq tövsiyələr də göstərir ki, bu mürəkkəb və irihəcmli işin uğurla həyata keçirilməsi istehsalçıların siyahıyaalmanın məqsəd və vəzifələri, onun zəruriliyi, ölkə və əhali üçün əhəmiyyəti, bu prosesdə kənd təsərrüfatı məhsulu istehsalçılarının üzərinə düşən vəzifələr barədə vaxtında məlumatlandırılmasından, siyahıyaalmaya cəlb edilən işçilərin peşəkarlığından, habelə siyahıyaalma vərəqəsindəki suallara alınan cavabların keyfiyyətindən çox asılıdır.

2025-ci ildə keçiriləcək kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədilə 2024-cü il iyulun 15-dən avqustun 15-dək Ağsu rayonunda kənd təsərrüfatının sınaq siyahıyaalınması keçirilmişdir. Tədbir rayonun üç inzibati ərazi dairəsi üzrə səkkiz yaşayış məntəqəsində ümumilikdə 1942 təsərrüfatı əhatə etmişdir.

Sınaq siyahıyaalma zamanı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının "2020-ci il Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramı"nın tövsiyələri, əvvəlki siyahıyaalmaların təcrübəsi, kənd təsərrüfatının yerli xüsusiyyətləri, aidiyyəti dövlət qurumlarının, beynəlxalq ekspertin rəy və təklifləri nəzərə alınmaqla hazırlanmış siyahıyaalma vərəqəsi və onun doldurulması qaydaları, CAPI (Computer Assisted Personal Interviewing - kompüter vasitəsilə şəxsi müsahibə) üsulu ilə əldə ediləcək məlumatların elektron formada daxil edilməsi üçün metodoloji əsasları və praktiki aspektləri özündə ehtiva edən xüsusi proqram təminatları təcrübi olaraq planşet tipli kompüterlərdə uğurla sınaqdan çıxarıldı. Hazırlıq işləri davam etdirilir.

Ümumilikdə, 2025-ci ildə keçiriləcək kənd təsərrüfatının siyahıyaalınması nəticəsində təsərrüfatların istehsal fəaliyyəti, o cümlədən torpaqlardan istifadə və onların suvarılması vəziyyəti, istifadə edilən toxumların mənbəyi, gübrə və pestisidlərdən istifadə, cins heyvan və quşların sayı, istifadə olunan yemin növləri, akvakultura, kənd təsərrüfatı təyinatlı tikililər, işçi qüvvəsi və s. barədə aktual məlumatların əldə edilməsinə imkan yaranacaqdır. Bütün bunlar müvafiq qərarların qəbul edilməsində mühüm informasiya mənbəyi kimi çıxış etməklə, bu sahədə statistik müşahidə və tədqiqatların, elmi araşdırmaların aparılmasında baza rolunu oynayacaq, eyni zamanda müvafiq statistik məlumatların beynəlxalq müqayisəliliyi təmin ediləcəkdir.

**Fərhad XƏLİLOV,**
**Balakən Rayon Statistika İdarəsinin rəisi**

# GÖZƏLLİYİN İŞIĞINDA..



Gözün aydin, gözal elim,
Göz oxşayan Qabaxçölüm!
Qoynun gəlintək bəzənir,
Ömrün-günün təzələnir.
Yaraşıqlı hüsnün sənin
Günü- gündən abad olur,
Seyr etdikcə camalini
Könlüm-gözüm rahat olur.
Fərli Vətən övladları
Xariqələr yaratdıqca,
Qədirbilən ellərimiz
Saf ürəklə deyir: Yaşa!
Baxın,təzə bağ- bağçalar
Gül- çiçəyə bələnibdir,
Par-par yanır gur çıraqlar
Yollara nur ələnibdir.
Bizim kəndin nazlı çayı
Sahil boyu seyrə dalir;
Büllur təki saf suları
Həzin- həzin layla çalır.

Odur, Şəhid Bulağını
Bürüyür gül rahiyəsi.
İsitməzmi ürəkləri
Ölümsüz Şəhid nəfəsi!
Hər gözəllik bir sovqatdır
Hünər yolu seçənlərə.
Sevgi dolu həyat gələr
Elin gücü olan yerə.
Gül- çiçəklə qarşılayar
Şərif eli hər qonağı.
Görən deyər saf ürəklə:
Nə gözəldir ŞƏRİF BAĞI.
Gördükcə bu cah-cəlalı
Ürək coşur, ilham gəlir.
Axi, bizə rövnəq verən
Bu kənd bizim, el bizimdir.
Hərəmiz bir ağac əksək,
Yurdum dönər gülüstana.
Qoyduğumuz hər kərpic də
Bəzək verər camalına.

Var olsun qoy qədirbilən
Vətən oğlu, Vətən qızı!
Saf niyyəti, əməliylə
Uca etsin adımızı.

**XUTRA RAMAZAN.**

# 20 Yanvar faciəsinə həsr olunmuş xüsusi dərslər keçirilib



20 Yanvar faciəsinin otuz beşinci ildönümü ilə əlaqədar Balakən rayon ümumi təhsil müəssisələrində xüsusi dərslər keçirilib.

Qeyd edək ki, bu barədə elm və təhsil nazirinin müvafiq əmri ilə təsdiqlənmiş "20 Yanvar faciəsinin otuz beşinci ildönümü ilə bağlı Elm və Təhsil Nazirliyinin Tədbirlər Planı"nda qeyd edilib. Plana əsasən, təhsil müəssisələrində 20 Yanvar faciəsinə həsr olunmuş kitab, foto və rəsm sərgilərinin, ədəbi-bədii kompozisiyaların təşkili, konfrans, seminar, mühazirə və "dəyirmi masa"lar keçirilib.

**YENİ BALAKƏN**

# Balakən rayon UGİŞM-də şahmat birinciliyi



Bu gün Balakən rayon UGİŞM-də keçirilən bağlanış mərasimində öncə Dövlət Himni səsləndirildi, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra məktəb rəhbərliyi 20 Yanvar faciəsi barədə şagirdlərə məlumat verdi.

20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş şahmat idman növü üzrə 12-14-16 yaş qrupları üzrə oğlan və qız şahmatçıları arasında 48 (qırx səkkiz) nəfərin iştirakı ilə təsnifat xarakterli məktəbin yekun vurulan birinciliyində, hər yaş qrupunda 1-3 cü yerləri tutan qaliblərə və fərqlənən şahmatçılara Balakən rayon UGİŞM -nin xatirə diplomları təqdim edildi. Nəticələrimiz aşağıdakı kimi olmuşdur:

12 yaşlı qızlar arasında 1-ci yeri Hüseynli Çiçək, 2-ci yeri Hüseynli Selcan,3-cü yeri Alqayeva Səbinə, 12 yaş oğlanlar arasında 1-ci yeri Axundzadə Fuad, 2-ci yeri Hacıyev Pərvin, 3-cü yeri əmsalları eyni olan Hacıyev İzbullah və Məmmədov Hacı,



14 yaş qızlar arasında 1-ci yeri Cəlilova Səbinə, 2-ci yeri Bayramova Nihan, 3-cü yeri Bayramova Zəhra,

14 yaş oğlanlar arasında 1-ci yeri Kiqovlar Şahid, 2 ci yeri Qunduzov Muxtar, 3-cü yeri əmsalları eyni olan Ərbəşiyev Röyal və Manafov Fəqan,

16 yaş qızlar arasında 1-ci yeri Mehdiyeva Fidan, 2-ci yeri İbadova Xədicə, 3-cü yeri Havalayeva Nigar,

16 yaş oğlanlar arasında 1-ci yeri Kərimov Şakir, 2-ci yeri Həmzəyev Məcid, 3-cü yerləri əmsalları eyni olan Telliyev Həybullah və Məmmədli Qalib tutdu. Qalibləri təbrik edir, daha böyük və mötəbər yarışlarda uğurlar diləyirik.

**Vaqif OCAQVERDİYEV,**
**Balakən rayon UİGŞM-nin T/hissə müdürü.**



# Ənənəvi "Bilik yarışı"nın final mərhələsi keçirilib

Balakən rayonu üzrə təhsil sektoru tərəfindən hər il ənənəvi olaraq təşkil edilən məktəblərarası "Bilik yarışı"nın final mərhələsi keçirilib.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş yarışın final mərhələsi Dövlət Himninin səslǝndirilməsi ilə başlayıb, daha sonra Ulu Öndər Heydər Əliyevin, Vətənin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin və "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində vəfat etmiş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İnteqrasiya təlimli internat tipli gimnaziyada keçirilən 10 məktəb komandasının iştirak etdiyi final mərhələsində I yerin qalibi Nizami adına şəhər 1 nömrəli tam orta, II yerin qalibi eyni nəticə ilə Qazma 1 nömrəli kənd tam orta və Qaravəli kənd tam orta, III yerin qalibi isə Tülü kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbinin komandası olub.

Qeyd edək ki, "İstedadlı uşaq və gənclərin inkişafı üzrə Fəaliyyət Planı"na müvafiq olaraq keçirilən bilik yarışının təşkilində məqsəd istedadlı şagirdlərin aşkar edilməsi və onların inkişafı üçün dəstəkləyici təhsil mühitinin yaradılmasıdır.

**YENİ BALAKƏN**

# "ELMASDA" daha nə yeniliklər var..?









Xidmət sahələrində yeniliklər gördükcə, vətəndaşa sərfəli, keyfiyyətli, dəqiq xidmətlər göstərildikcə və bu yenilikləri, xidmətləri ictimaiyyətə duyurmaq, bu barədə vətəndaşı məlumatlandırmaq mətbuatın işlərindən biri olaraq cüncəl informasiya təminatıyla həm insanımızın xidmətlərdən faydalanmasında, həm də xidmət göstərənlərin işinin dəyərləndirilməsində "Yeni Balakən" qəzetinin media fəaliyyəti və dəstəyinin özü də bir xidmətdir. Mövzumuz "ELMAS"-ın xidmətləridir. "ELMAS" klinikasından bir kərəsində bəhs etmiş və yenə də yazacağımızı bildirmişdik, görürəm ki, hələ yazacağıq "ELMAS"dan..

Klinikanın İTS ilə müqaviləsi var və bu o demekdir ki,vətəndaşlarımız burda da ödənişsiz xidmətlərdən istifadə edə biləcəklər. Burda da şəhid ailələrinə bütün xidmətlər pulsuzdur. "ELMAS"da rentgen xidməti istifadəyə verilib, daha nadir bir xidmət isə istifadəyə verilmək üzrədir. Belə ki, böyrəklərdə böyrək daşını parçlayan cihaz artıq klinikadadır, qurulum və montaj işləri gedir, çox yaxında tamamlanaraq böyrək daşından əziyyət çəkən xəstələrə şəfa üçün istifadəyə veriləcək.

Mən başqa bir gözəllikdən danışmaq istəyirəm. Klinikanın təsisçisi Əfqan müəllim yaxşı dost,vətənpərvər insan, Balakəni, balakənlini seven həmyerlimizdir. Görüşlərimizin birində yanvar ayı üçün Türkiyədən həkim heyəti gətirəciyini dedi. Media olaraq bunun elanını da verdik. Elan edilən günün səhəri biz də "ELMASA" gəldik, Türkiyədən gələn həkim heyəti artıq klinikada qəbula başlamışdı. Binaya yaxınlaşanda küçədəki maşınların çoxluğunu, klinikaya daxil olanda foyedə növbəsini gözləyən, qəbula yazılmaq üçün növbədə duran kütləni, qalabalığı, necə deyərlər içərisi tüstü kimi dolu insanları görəndə özüm özümə sual verdim: Nə məsələdir görən? Ətrafı seyr edirəm;tibb bacıları xəstələrə qolundan dəstək olub kimini analizə, kimini qəbuluna yazıldığı həkiminin yanına aparır,qeydiyyatçılar səbrlə, diqqətlə xəstələri qeydiyyata alır.. Tanıdıq bir çox insanlar görürəm, həkim qəbulundan çıxanlardan ərkim çatana yaxınlaşaraq söhbət edirəm. Həmsöhbətimdən biri Qitinova Pitimat xanımdan travmatoloq, ortoped cərrah Uzm. Dr. Gürkan Eryanılmazın qəbulunda soruşuram ki, - Yanaşmadan, müayinədən, təyinatdan razı qaldınızmı? Cavab: Bəli,bəlkə də birdə heç vaxtı görməyəcəm Gürkan həkimi amma o insani yanaşması,sanki doğmasıyammış kimi münasibəti, şəfqətli davranışı məndə xoş təəssurat yaratdı, ağrılarımı unutdum,yazdığı təyinatla sağalacağıma inandım, axtardığım şəfanı tapdığıma əmin oldum..

Digər həmsöhbətim Mehdiyeva Əfsanə xanım İnvaziv Radioloq Uzm. Dr.İsmayıl Caymazın qəbulunda idi.Eyni sualla Əfsanə xanıma müraciət etdikdə cavabı: Yüksək səviyyədə, professional yanaşır, müayinə edir xəstəni. Özümü bir anlıq Türkiyadə hiss etdim..

Növbəri həmsöhbətim Mehdi dayı, invaziv kardioloq Dr.Yunus Çelikin qəbulundadır. Ürəyindəki probleminə çözüm arayan Mehdi dayı həkimin ona ürək dirək olduğunu və həkimdən razı qaldığını bildirir. Omarov Kamran isə USM həkimi Sevinc Əliyevadan razılıq edir. Xoş münasibətindən, dəqiq müayinəsindən danışır..

Qiymətlərlə maraqlanıram.Elə əsas məsələ də bu imiş,müraciətlərin çoxluğunun səbəblərindən biri. Hər şey daxil, cəmi 50 manata. Nəzərə alsaq ki, həkimlər müayinə üçün cihazlarını da gətiriblər, o zaman nəyisə pulsuz etmiş olurlar. Normalda bu heyyəti ən yaxın Bakı şəhərində görə bilərsən. Orda sadəcə qeydiyyat 100 manatdır. Müayinə, cihaz, əməliyyat isə ayrıca əlavə ödənişlidir. Bakıya və geriyə yol, yemək, xəstəni aparıb gətirənin xərcləri, ümumi hesab 500 manata yaxınlaşır. Hələ üstəgəl Balakəndə yerişini zorla yeriyən xəstənin toplamda 1000 km-lik səfərinin narahatçılığı..

Çox uzaqda və baha olanı Balakənə, Balakənlinin ayağına qədər yaxına və ucuza gətirmək elə xidmətin ən böyüyüdür. Bu, dostumuz Əfqan müəllimin xidmətidir."ELMAS"da bu axırıncı deyil,axarıncıdır.Bir ay sonra yenə təkrarlanacaq. Əfqan müəllim demişkən,"ELMAS"dan hələ çox gəzəlliklər paylaşacağıq,inşallah.

**P.S.** Türkiyədən gələn həkim heyəti "ELMAS" klinikasının yaxınlığında yerləşən "Balakən" kafesində nahar edərkən həyətdə bir xanımın qucağındakı ayağı yanlış sarıqlı uşaqla maraqlanırlar. Ofisiantdan soruşurlar uşağı.Körpə də, sən demə həmən ofisantın uşağı imiş. Ofisanta möhkəmcə tapşırırlar ki, birazdan uşağı gətirsin klinikaya. Əgər o cürə qalsa körpə ömürlük əlil qalacaqmış.Həkimlər iki etaplı müdaxilənin birinci etapını edərək ikincisi üçün də zaman və məkan bildirirlər. Axşam çağı isə klinikada boynunda böyük şiş olan imkansız birini görürlər və onu da o əcaib şişdən azad edirlər. Bütün bunları da pulsuz, öz hesablarına edirlər.. Qardaş dediyin,qardaşlıq bildiyin bu olsa gərək.

**Ramazan ABAL.**

# Kəndə yeni həyat gəlir






Vətənimizin əsrarəngiz guşəsi olan Balakən gündən-günə abadlaşır,inkişaf edir.Geniş vüsət alan quruculuq işləri onun simasını dəyişir.Balakən göz qabağında yeniləşir,gözəlləşir.Onun dilbər guşəsi olan Qabaxçölümüz də bu cəhətdən istisna deyil.Doğma torpağına qəlbən bağlanan,halal zəhmətiylə bolluq yaradan,alnının təriylə çörək qazanan qədirbilən insanların əməyi sayəsində kəndimiz daha da abadlaşır, gözəlləşir.

Vətəndən kənarda yaşayıb fəaliyyət göztərən soydaşlarımız ,Qabaxçölün ləyaqətli oğulları kənarda qalmır,öz maddi və mənəvi dəstəyini əsirgəmədən doğma yurduna yeni-yeni töhvələr verir. Onlar kəndin içində yaraşıqlı imarətlər ucaldır, yaşayış binaları,ticarət və iaşə obyektləri inşa edir. Nəticədə onun siması və həyat tərzi başdan-başa dəyişir.

Bu günlər yenə Qabaxçölün ayrılmaz qanadı olan Şərif tabundan xoş səda yayıldı. Xaricdə yaşayan iş adamlarının maddi dəstəyi ilə kənddə abadlıq işləri geniş vüsət aldı.Kəndi iki bölüb axan saf sulu Qursu çayı sahilində yaraşıqlı park-istirahət mərkəzi salındı. Orada uşaqlar üçün əyləncə guşələri, gənclər və yaşlı adamlar üçün istirahət yerləri yaradılıb. Sahil boyunca yürüyüş xətləri döşənib. Hər tərəf gül-çiçəyə bələnib.Yol boyu ağac və bəzək kolları əkilib. Kənd boyu uzanan 8 kilometirlik yola işıq çəkilib, gur çıraqlar kəndi nura boyayır. Ərazidəki şəhid bulağı və qəbiristanlıq daha da abadlaşdırılıb. Parkın çox hündürlüyündə üşrəngli Azərbaycan Bayrağı qürurla dalğalanır.

Bu xeyirxah işdə vətənpərvər iş adamları ilə yanaşı kənd ictimaiyyəti də ürəklə iştirak edir.Bu gözəl məkan yeni ailə quran gənclərin əhdi-peyman yeri,bayram mərasimlərinin sevimli məkanı olacaqdır. Bu gün bu yurdun sədaqətli övladlarının yurduna ,vətəninə sevgisini hər kəs alqışlayır,insanlara sevinc gətirənlərə: -Var olun- deyirik.

**Ramazan XUTRAYEV,**
**Şərif kənd ağsaqqalı**

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b

ramazanabal@gmail.com

Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153

Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.

Tiraj 100